1-1_tovuz.qxd 10.01.2017 11:20 Page 1


# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 01-02 (7483-7484) * 10 yanvar 2017-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


# Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki



- Əziz həmvətənlər.

2016-cı il tarixdə qalır. 2016-cı il ölkə iqtisadiyyatı üçün ən ağır illərdən biri olmuşdur. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının bir parçasıdır. Dünyada isə iqtisadi böhran 2016-cı ildə davam etmişdir. Bundan əlavə, neftin qiymətinin dünya bazarlarında üç-dörd dəfə aşağı düşməsi nəticəsində gəlirlərimiz kəskin şəkildə aşağı düşmüşdür. Belə bir vəziyyətdə biz ancaq ciddi islahatlar apararaq vəziyyətdən çıxış yolunu tapa bilərdik və buna nail olduq.

Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını saxlaya bilmişdir, iqtisadi sabitlik təmin edilmişdir və bu il aparılan ciddi və hərtərəfli iqtisadi islahatlar gələcək inkişafımız üçün çox gözəl üfüqlər, perspektivlər açır. Onu da qeyd etməliyəm ki, bütün çətinliklərə baxmayaraq, ölkəmizin qeyri-neft sənayesi bu il 5 faiz, kənd təsərrüfatı isə 2 faizdən çox artmışdır. Biz bu il valyuta ehtiyatlarımızı qoruya bilmişik. Bu da çox mühüm məsələdir. Çünki bizim iqtisadi potensialımız, maliyyə resurslarımız həm iqtisadi, həm siyasi müstəqilliyimizi müəy -yən edir.

2016-cı ildə bütün sosial proqramlar artıqlaması ilə icra edilmişdir. Köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində yeni qəsəbələr, şəhərciklər salınmışdır. Əhalinin pul gəlirləri, - baxmayaraq ki, 2016-cı il böhranlı ildir, - 7 faiz artmışdır, orta əməkhaqqı isə 9 faiz artmışdır.

Bir sözlə, bütün çətinliklərə baxmayaraq Azərbaycan 2016-cı ildə də inamla inkişaf etmişdir. Bir daha qeyd etmək istəyirəm, bu il qəbul etdiyimiz qərarlar, xüsusilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar öz nəticəsini verəcəkdir. Eyni zamanda, biz ixracın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atmışıq. Çünki neft gəlirlərinin aşağı düşməsi nəticəsində bizim valyuta gəlirlərimiz azalıb və biz qeyri-neft ixracının inkişafı ilə bu boşluğu bərpa edə bilərik.

2016-cı ildə bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Bizim dostlarımızın sayı artıb, bizi istəməyən qüvvələr, bizə qarşı vaxtaşırı kampaniyalar aparan qüvvələr isə siyasi səhnədən gedirlər. Azərbaycan beynəlxalq təşkilatlarda böyük uğurlar qazana bilmişdir. Xüsusilə İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox vacib sənədlər qəbul edilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin əsas prioritetidir. Deyə bilərəm ki, bizim siyasi və diplomatik mövqelərimiz il ərzində daha da möhkəmlənmişdir. Qondarma "Dağlıq Qarabağ" qurumunu heç bir ölkə tanımır və tanımayacaq. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq həm bu məsələ ilə bağlı fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda, ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar vermişdir.

2016-cı il bizim şanlı hərbi qələbə ili kimi tarixdə qalacaqdır. 1994-cü ildən bu günə qədər ilk dəfə idi ki, Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etmişdir. Aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq bizim ordumuz düşmənə sarsıdıcı zərbələr vurmuş və işğal edilmiş torpaqların bir hissəsini azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı işğalçılardan azad edilmişdir. On minlərlə hektar torpağa indi Azərbaycan Ordusu tam nəzarət edir.

Biz şəhidlər də vermişik. Allah şəhidlərimizə rəhmət eləsin. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq göstərmişdir. Bizim bayrağımız bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır. Azad edilmiş torpaqlarda olarkən Azərbaycan bayrağı altında mən bir daha demişdim ki, Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəkdir. Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim tarixi qələbəmizdir. Bu qələbə münaqişənin həllini yaxınlaşdırır.

2016-cı ildə bizim böyük idman qələbəmiz də olmuşdur. Rio Olimpiya Oyunlarında idmançılarımız tarixi qələbə qazanmışdır. 18 medal qazanaraq Azərbaycan bir daha sübut etdi ki, Azərbaycan idman dövlətidir və Azərbaycan idmançıları güclülərin sırasındadır. Medalların sayına görə Azərbaycan dünya miqyasında 200 ölkə arasında 14-cü yerə layiq görülmüşdür. Azərbaycan Avropa ölkələri arasında 7-ci, postsovet məkanı ərazisində 2-ci, müsəlman aləmində isə 1-ci yerdədir. Bu, bizim böyük idman qələbəmizdir və eyni zamanda, bu qələbə xalqımızın, dövlətimizin gücünü göstərir.

Bu il biz müstəqilliyimizin 25 illiyini qeyd edirdik. Hərbçilərimiz, idmançılarımız bu bayram ilində bizə qələbə sevinci bəxş etmişlər.

2016-cı ildə enerji təhlükəsizliyi istiqamətində önəmli addımlar atılmışdır. "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bu ilin əvvəlində ölkəmizin təşəbbüsü ilə artıq ikinci dəfə idi ki, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası Bakıda keçirilmişdir və iştirak edən bütün ölkələr və beynəlxalq təşkilatlar qəbul edilmiş yekun qətnamədə Azərbaycanın liderlik rolunu bir daha vurğulamışlar. "Cənub Qaz Dəhlizi" Azərbaycanın təşəbbüsü və böyük maliyyə dəstəyi ilə icra edilən qlobal, beynəlxalq enerji layihədir. Bu, tarixi layihədir. Layihə icra olunandan, bütün işlər başa çatandan sonra Azərbaycan çox böyük mənfəət görəcəkdir. Beləliklə, bu il proqram üzrə bütün işlər yüksək səviyyədə aparılmışdır və əminəm ki, bu nəhəng transmilli layihə vaxtında istifadəyə veriləcəkdir. Eyni zamanda, bu il bizim yeni qaz yataqlarımızdan çıxarılacaq qazın həcmi də müəyyən edilmişdir və beləliklə, "Cənub" Qaz Dəhlizini qidalandıracaq layihələr arasında təkcə "Şahdəniz" layihəsi deyil, eyni zamanda, "Abşeron" qaz yatağı da olacaqdır.

Hesab edirəm ki, bu il biz nəqliyyat təhlükəsizliyi istiqamətində tarixi addımlar atmışıq. Bildiyiniz kimi, uzun illər davam edən Şərq-Qərb nəqliyyat dəhlizinin icrası artıq başa çatır və Şimal-Cənub nəqliyyat dəhlizinin istifadəyə verilməsi istiqamətində Azərbaycan çox önəmli addımlar atmışdır. Demək olar ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin Azərbaycan tərəfinə düşən payı üzrə görüləcək işlər artıq görülübdür. Biz qısa müddət ərzində bütün işləri başa çatdırdıq və beləliklə, gələcəkdə əlavə səylər qoyaraq çalışacağıq ki, bu iki önəmli magistral tezliklə işə düşsün.

2016-cı ildə Azərbaycanda referendum keçirilmişdir. Referendum azad, şəffaf şəkildə aparılmışdır. Bütün exit-pollar referendumun rəsmi nəticələrini təsdiqləmişdir. Beynəlxalq müşahidəçilər də qeyd etmişlər ki, referendum azad, şəffaf şəkildə həyata keçirilmişdir, heç bir pozuntu olmamışdır və Azərbaycan xalqının iradəsi referendumun nəticələrində öz əksini tapmışdır. Referendumun nəticələri bizim siyasətimizə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən bu dəstəyə, bu inama görə Azərbaycan xalqına bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Bir daha Azərbaycan xalqını əmin etmək istəyirəm, bütün səylərimi qoyacağam ki, bundan sonra da dövlətimizin, xalqımızın maraqları layiqincə qorunsun.

2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Bu il ölkəmizdə bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Azərbaycan bir daha dünyaya sübut etmişdir ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə, bir səma altında rahat, ləyaqətlə yaşaya bilərlər. Azərbaycan multikulturalizm ideyalarının dünyada təbliği işində müstəsna rol oynayan bir ölkədir.

Əziz həmvətənlər, bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Mən bütün dünya azərbaycanlılarını səmimi qəlbdən salamlayıram, onlara ən xoş arzularımı çatdırıram. Onlar bilirlər və bilməlidirlər ki, onların arxasında möhkəm, güclü Azərbaycan dövləti dayanır.

Əziz bacılar və qardaşlar, mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

1-1_tovuz.qxd 10.01.2017 11:20 Page 2



# İcra başçısı tovuzluları təbrik etdi

*Rayon icra hakimiyyətinin iclas zalında Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə tədbir keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalov çıxış etmişdir. Ölkəmizin həyatında 2016-cı ildə baş verən hadisələri hərtərəfli analiz edən natiq qeyd etdi ki, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında aparılan geniş islahatlar 2017-ci ildə də uğurla davam etdiriləcəkdir. Qeyri neft sektorunun sürətli inkişafına geniş start verilib və rayonumuzda da bu işlərə böyük önəm verilir.*



O, 2016-cı ildə rayonumuzda görülən işləri də geniş təhlil edərək qeyd etdi ki, əsas məsələ qeyri neft sektorunun dirçəldilməsidir ki, biz tovuzlular da bu işin öhdəsindən gəlmək üçün var qüvvəmizi əsirgəməyəcəyik.

Daha sonra İcra başçısı ölkə Prezidentinin rayonumuza tarixi səfərindən, yeni obyektlərin açılmasında iştirakından və qarşıda duran məsələlərdən geniş söhbət açdı.

Çıxışına yekun vuran Tofiq Zeynalov tovuzluları Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni ilin gəlişi münasibətilə təbrik etdi, hamıya uğurlar, firavan həyat, işıqlı günlər arzuladı.

# "Azərişıq" Tovuzda yeni ofis binasını açdı

***A**zərbaycanın digər bölgələrində olduğu kimi, Qərb Regional Enerji Təchizatı və Satışı İdarəsinə daxil olan Tovuz Elektrik Şəbəkəsində köklü dəyişikliklər həyata keçirilir. Rayonun paylayıcı elektrik şəbəkələri yenidən qurularaq ən müasir səviyyəyə çatdırılıb. Tədbirlər planına uyğun olaraq, yarımstansiyaların, paylayıcı qurğuların, kabel və hava ötürücü xətlərin, onların mühafizə və avtomatika vasitələrinin normal və qəzasız iş rejimi yaradılıb. Qış mövsümü üçün də xüsusi hazırlıqlar görülüb.*




simdə iştirak edən Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov və "Azərişıq" ASC sədrinin müavini Vüqar Əhmədov son illər ölkənin hər yerində elektrik enerjisi təchizatı sisteminin yenidən qurulduğunu,rayon,şəhər,qəsəbə və kəndlərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi təchizatı istiqamətində məqsədyönlü işlər aparıldığını qeyd ediblər. Bildirilib ki, yaşayış məntəqələrinin,yeni açılan iş yerlərinin səmərəli və təhlükəsiz elektrik enerjisi ilə təmin olunması, şəbəkələrdə həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

Tovuz Elektrik Şöbəsinin rəisi Hüsaməddin Mirzəyev göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə rayon rəhbərliyinə, "Azərişığ"ın rəhbərliklərinə minnətdarlığını bildirmişdir.





Rayonun elektrik enerjisi təchizatı şəbəkəsinin yenilənməsi işləri çərçivəsində Səhmdar Cəmiyyət Tovuz şəhərində Elektrik Şəbəkəsi üçün 200 kv.m sahəsi olan "Azərişıq"ASC-nin daxili vəsaiti hesabına yeni inşa edilmiş ofis binasını istifadəyə verib.

İki mərtəbədən ibarət ofis binasında səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb. Energetika sahəsinin avadanlıqları ilə bərabər kompüter texnikası və internetlə təmin edilib. Ayrı-ayrı fəaliyyət sahələrini nəzərə alaraq burada abonentlərin ərizə və şikayətlərinin qəbulu, satış, qəza xidməti, maliyyə-mühasibatlıq məsələləri üçün xüsusi otaqlar yaradılıb. Elektrik Şəbəkəsinin nəqliyyat təsərrüfatı da yenidən qurulub. İnzibati binanın ətrafında abadlıq işləri aparılıb. Yaşıllıq zolağı salınaraq dekorativ ağaclar əkilib. Binanın işıqlandırma sistemi axşam saatlarında əraziyə xüsusi yaraşıq verir.

Yeni inşa edilmiş ofis binasının istifadəyə verilməsi münasibətilə keçirilən məra-

***"Tovuz"***

## Bizim müsahibə

*"İllər ötür, bizə qalır o illərin xatirəsi". Ötən 2016-cı ilimiz də tarixə döndü. Müstəqilliyimizin 25 ilində ağır itkilərimizlə ynaşı fərəhli illərin də şahidi olduq. Ölkəmizdə yaradılan siyasi sabitlik iqtisadi inkişafımıza güclü təkan verib Azərbaycanımızı regionda lider ölkəyə, dünya ölkələri sırasında söz sahibinə çevirdi. Paytaxtdan başlayaraq ucqar kəndlərimizə qədər sosial inkişafa nail olduq. Qəbul edilən Regionların sosial iqtisadi inkişafı Dövlət Proqramlarının həyata keçirilməsi nəticəsində rayonumuzda da xeyli yol çəkilişi, təmir tikinti və abadlıq işləri görüldü. Bəs bunlar hansılardır? Rayon İcra Hakimiyyəti Memarlıq və tikinti şöbəsinin müdiri Rəşid Həsənovla görüşüb bunlar barədə oxucularımıza məlumat verməsini xahiş etdik.*

# Ötən ilin yadigarları

- Rəşid müəllim, hansı səmtə üz tuturuqsa bir işgüzarlığın şahidi oluruq. Tikilən fərdi və ümumi yaşayış evləri, görülməkdə olan abadlıq işləri rayonumuzun simasını ildən ilə dəyişdirir.

**Yola salmaqda olduğumuz 2016-cı il hansı işlərlə yadda qalacaq?**

- Söhbətimizə abadlıq işlərindən başlamaq istəyirəm. Çünki bütövlükdə götürdükdə Tovuz şəhəri Sovet hakimiyyəti illərində əsasən xalqın inşa etdirdiyi fərdi yaşayış evlərindən ibarətdir. Biz isə abadlıq işləri xətti ilə şəhərin H.Əliyev prospektində H.Aslanov, R.Məmmədov, M.Musayev, S.Vurğun, aşıq M.Bayramov küçələrində abadlıq işləri aparmışıq. Bu küçələrin səkilərinə 2860 kv m. tomet tavalar döşənmiş, 690 kv m. hasar hörülmüş, hasarlarda 2940 kv m. suvaq işləri görülmüş, hasarlarda və binaların fasadında 7,7 kub metr ağac materialdan dekorativ şəbəkələr yaradılmış, 6480 kv m. hasarda, binaların fasadında 1980 kv





m. darvazalarda rəngləmə işləri görülmüş, küçələrdə 200 metr beton bort daşları düzülmüş, hasarlarda aqlay və qaya daşından dekorativ üzlüklər vurulmuşdur.

**- Qovlar şəhərində hansı işlər görülmüşdür. Abadlaşıb şəhər simasına çevrilirmi?**

- Əlbəttə, Qovlar ötən əsrin 60-cı illərindən şəhər tipli qəsəbə statusunu almış, elə kommunist dönəmində xeyli inkişaf yolu keçmiş, qonşu Gədəbəy və Tovuz rayonunu birləşdirən yolun qovşağında abad bir yaşayış məntəqəsidir. Şəhər statusu aldığı qısa müddətdə yenidənqurma, tikinti abadlıq işləri nəticəsində onun da siması tamam dəyişmişdir. Yola salmağa hazırlaşdığımız 2016-cı ildə də burada xeyli abadlıq işləri görmüşük. Adamların və sosial məişət obyektlərinin ən çox olduğu Vağzal küçəsində müvafiq olaraq 455 kv m. hasar hörülmüş, hasarlarda 975 kv m. suvaq işləri görülmüş, bu hasarda və binaların fasadında rəngləmə işləri aparılmış, 670 metr uzunluğunda beton bort daşları düzülmüş, səkilərə 1250 kv m. Asfalt örtük döşənmiş, 250 kv m. Beton tavalar qoyulmuşdur. Ötən əsrin 60-cı ilində Dönük Qırıqlı tərəfdən Qovlara girişdə inşa edilmiş Giriş tağı əsaslı təmir edilib müasir görkəmə salınmışdır. Yeri gəlmişkən məlumat üçün deyim ki, bu Giriş tağı Sov İKP MK-nın birinci katibi M.S.Xruşşovun Qafqaz respublikalarına qatarla səfəri zamanı inşa edilmişdi. O zaman indiki İpək yolu çəkilməmişdi. Bakı-Tbilisi yolu buradan keçirdi.

**-Rəşid müəllim, yaqin, mövcud yaşayış evlərində mənzil fondunun təmirinə də diqqət yetirilir.**

-Bəli, mənzil fondunun əsaslı təmiri işləri xətti ilə Tovuz şəhərinin H.Əliyev prospektində bir ədəd, M.Əzizbəyov küçəsində 2 ədəd, M.Ə.Sabir küçəsində bir ədəd, Xaqani küçəsində iki ədəd Semzavod qəsəbəsində 2 ədəd beşmərtəbəli yaşayış binasında, Qovlar şəhərində 2 ədəd ikimərtəbəli yaşayış binasında təmir işləri davam edir.

**-Rayonumuzun kəndlərarası yollarında, şəhərlərimizin küçələrində necə? Abadlıq və yol tikintisi xətti ilə nə kimi yeniliklər var?**

-Tovuz şəhərində küçələrin əsaslı təmiri xətti ilə S.Qılıcov, N.Nərimanov, Aşıq Hüseyn Bozalqanlı, A.Ə.Rzayev, S.Məmmədov küçələrində müvafiq olaraq ümumi uzunluğu 1960 kv m. Asfalt beton örtük salınmışdır.

Kəndlərarası yolların tikintisi xətti ilə Qovlar-Əyyublu-Alakol-Ağacqala-Sarıtala-Haçaqaya avtomobil yolunun tikinti işləri davam etdirilir.

**- Rayonumuz qarşıdan gələn2017-ci ili hansı sosial mədəni, yaxud inzibati binaların bəxşişi ilə qarşılamaqdadır?**

- Rayonumuzda sifarişçisi Kənd Təsərrüfatı Nazirliyi olan yeni Ərazi Kənd Təsərrüfatı İdarəsinin xüsusi memarlıq üslubu ilə inşa edilmiş inzibati binasının tikintisi başa çatdırılmışdır. Tovuz və Qovlar şəhərində H.Əliyev Fondunun dəstəyi ilə 2 ədəd 100 yerlik ikimərtəbəli uşaq bağçası-körpələr evi 2016-nın yadigarlarıdır. Bir ədəd uşaq bağçası-körpələr evi əsaslı təmir edilmişdir.

Tovuz Elektrik Şəbəkəsinin yeni inzibati binası tikilib istifadəyə verilmişdir. Biz 2017-ci ili bu hədiyyələrlə qarşılayırıq.

Bundan əlavə, Tovuz şəhərində Nizami adına Mədəniyyət evinin və Aşıq Hüseyn Bozalqanlı adına Aşıq sənəti Dövlət Muzeyinin (sifarişçi Mədəniyyət və Turizm Nazirliyi) tikintisi davam etməkdə olan işlərini 2017-ci ilə əmanət edir və ilimizin uğurlu gəlişini arzulayırıq.

Onu da qeyd edim ki, Qovlar şəhərində İnternat məktəbinin, Ağbulaq kənd tam orta məktəbinin, Xalça İstehsalat Müəssisəsinin tikintisinə başlanılmışdır.

- Müsahibəyə görə təşəkkür edir, 2017-ci ildə Sizə işlərinizdə uğurlar arzulayırıq.

***Müsahibəni apardı Q.Alməmməd***

# Bəsləyək, atlaz olsun tut yarpağından

***Baramaçılıq xalqımızın qədim və ənənəvi təsərrüfat sahələrindən biri, ən sərfəlisidir. Qapalı şəraitdə və qısa müddətdə cəmi 40 günə məsul verir. Onu dərib təhvil verdikdən sonra təsərrüfatın digər sahələrilə də məşğul olub əlavə gəlir götürmək mümkündür. Sovet hakimiyyəti illərində kolxoz və sovxoz təsərrüfatında bu sahədən rayonumuzun kənd təsərrüfatı əməkçiləri hər il xeyli gəlir götürmüşdür. Biz hətta bir ailənin mövsüm zamanı 1000-1200 kq barama təhvil verdiyinin şahidi olmuşuq. Təəssüf hissi ilə demək lazımdır ki, keçid dövrü başqa sahələr kimi, təsərrüfatın bu növünə də ağır zərbə vurdu. Qovlar ətrafı kəndlərimizin adamları hələ də nəyinsə yerini isnad verəndə belə deyirlər: "Qovlarda, Barama idarəsinin yanında."***



Ancaq nə etməli, indi o idarədən və onun avadanlıqlarından heç bir əlamət qalmamışdır.

Fərəhli haldır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev rayonumuza ötən səfəri zamanı kənd təsərrüfatının ənənəvi sahələrindən olan üzümçülüklə yanaşı, ipəkçiliyin də inkişaf etdirilməsi barədə öz tövsiyyələrini vermişdir. Bundan fərəhlənən adamlarımız ilk təcrübə kimi ---960 q barama götürmüş, ona qulluq edərək dövlətə 574 kq barama təhvil verilmişlər. İlk təcrübə başqalarında da bu sahəyə xeyli maraq oyatmışdır. İndi barama bəsləmək istəyənlərin sayı birə on atmışdır. Əhalidə barama bəsləmək üçün kifayət qədər tikili mövcuddur. Şüşəbənd eyvanlarımız, ətrafları sellilofan örtüklə asanlıqla tutulub qızdırıla biləcək şifer çardaqlarımız kifayət qədərdir. Maraq olsa, yaxud, zəhmətə qatlaşsaq lap 10 qutu baramanın da öhdəsindən gəlmək, 40 günün ərzində kartof, qarğıdalı, buğda və s. əkin sahələrindən dəfələrlə çox gəlir götürə bilərik. Cənab Prezidentin təhvil veriləcək hər kq yaş barama üçün subsidiya müəyyən etməsi də bu işə marağı artırır.Qalır təkcə yem bazası.

Tut ağaclarımız keçid dövründə mavi yanacaq göyə çəkildiyindən məhv edilib yanacaq kimi istifadə edildi. Tək-tək qalanları isə budanmadığından qarıyıb keyfiyyətini itirdi. İndi bu işlə dövlət səviyyəsində məşğul olunması sevindiricidir. Respublikamıza Çindən gətirilən sortlaşdırılmış çəkil (cins tut) şitilərindən rayonumuz üçün hələlik10 min ədəd şitil ayrılmış, əkin başa çatdırılmışdır. Bundan başqa, 2000 ədəd yerli cins tut əkilmişdir. Rayonumuzda bütün sahələrin inkişafına torpaq lazımdır. Ərazimizi isə olduğundan artıq genişləndirmək mümkün deyil. Ehtiyat mənbələri işə salmaq qamış,böyürtkan kollarının altında mürgü döyüb qalan torpaqlarımızı baramaçılıq üçün yem bazası dövriyyəsinə daxil etməliyik. Bunu etmək çox vacibdir. Qol çırmalayıb işə girişmək vaxtıdır. Kəndarası yollarımızın ətraflarında, su arxlarının kənarlarında, Sağsahil kanalının ətraflarında, Bakı-Qazax avtomagistralının, "İpək yolu"nun hər iki tərəfində nə qədər istəsən boş ərazi zibilliklərə, kəndlərimizin məişət tullantılarının məskəninə çevrilmişdir. Gündüzlər böyürtkan kollarında sığınacaq tapan, gecələr kəndlərimizə doluşub dəstə ilə ulaşan çöl itlərini və çaqqalları hürküdüb qovmağın vaxtıdır. Hər kənd öz ərazisində elliklə bu işi görməyə borcludur.

Tut tezbitən və quraqlığa dözümlü ağacdır. Cəmi iki il qoruyub böyütsək payızda tökülən yarpaqları da mal, qoyun üçün keyfiyyətli yemdir. Meyvələri bağ-bağçadakı meyvə ağaclarımızı talayan quşların başını qatmaq üçün əlverişli vasitədir. İşgüzar olsaq qısa müddətə onun toxumunu səpməklə baramanın yem bazasını heç bir xərc çəkmədən genişləndirə bilərik. Bununla ipəyin maya dəyərini xeyli aşağı salmaq mümkündür. Köhnə kişilərin tut meyvəsini yığıb qazanda əzərək toxumunu çıxardığını, sonra da həmin toxumu suvarma zamanı biçənəklərə axıdıb yaxşı bitiş aldıqlarını çox müşahidə etmişik. Bunu aqronomlarımız da təsdiq edə bilərlər.

Yeri gəlmişkən deyək ki, yeni saldığımız çəkilliklər bitib əlverişli bazaya çevrilənə qədər həmin çəkillərdən çalaqüstü götürüb peyvənd etmək yolu ilə də baramaçılıq üçün qısa müddətə xeyli yem bazası yaratmaq mümkündür. Rayonumuzun bütün kəndlərində, elə yuxarıda qeyd etdiyimiz su arxlarının kənarlarında və böyürtkan kolluqlarında istənilən qədər tut ağacları var. Elə bu yazın əvvəlində və yay girəndə onlarda calaq aparmaqla xeyli baza yaratmaq olar. Tut ağacları tez calaq götürəndir. Bu calağın bir neçə üsulu elmdə mövcuddur. Təcrübəlilər isə ondan da çoxunu bilirlər. İşə başlamaq lazımdır.

İşləyək. Baramaçılıq üçün güclü yem bazası yaradaq. Sonra da barama bəsləyək, atlaz olsun tut yarpağından.

"İpək yolu" rayonumuzun ərazisindən keçir. İpəkçiliyi yenidən inkişaf etdirib gəlirli sahəyə çevirək.

Qız-gəlinlərimizə ipək geyinmək çox yaraşır. Yenə deyək ki:

"İndi bizim yerdə qızlar al geyir
Yayda ipək geyir, qışda şal geyir."

Yenə ipək geyindirək. Qurtaraq onların canını sintetik, mənşəyi bilinməyən yadelli geyimlərindən.

***Qədir Hümbətov***

1-1_tovuz.qxd 10.01.2017 11:20 Page 4



# Azərbaycan çoxmillətli dövlət kimi

*Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratik dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə, dinindən, irqindən, siyasi mənsubiyyətlərindən asılı olmayaraq azad və sülh əminamanlıq içində yaşamaq imkanları verir. Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgilərdə də, avarlar da, kürdlər də, talışlar da, udinlər də, kumıklar da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır.*

Ümummilli lider Heydər Əliyev Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğunun əsasını qoydu və apardığı islahatlarla ölkədə tarixən mövcud olan etnik-mədəni, dini müxtəlifliyin tolerant əsaslarının möhkəmlənməsini təmin etdi.

Müasir dövrdə Azərbaycan özünün multikulturalizm siyasəti və bu sahədə əldə etdiyi nailiyyətlərlə dünya dövlətlərinə, o cümlədən bu sahədə tarixən öz zəngin təcrübəsi ilə tanınan Qərb ölkələrinə nümunə olmaqdadır. Məlum olduğu kimi, bir sıra Qərb ölkələri, o cümlədən Böyük Britaniya, Fransa, Almaniya uzun illər apardıqları multikulturalizm siyasətindən bu gün rəsmi şəkildə imtina edirlər.

İlk dəfə olaraq 1971-ci ildə Kanada öz daxilindəki etno-mədəni müxtəlifliyi qorumaq və uğurla idarə etmək məqsədi ilə rəsmi şəkildə alternativ bir siyasi xətt elan etdi. Kanada rəsmən "Multikulturalizm" siyasətini dövlət siyasəti elan edərək, bununla bağlı hüquqi bazanı formalaşdırmağa başladı. Daha sonralar isə digər Qərb dövlətləri də bu uğurlu siyasət modelini öz ölkələrində tətbiq etməyə başladılar.

Multikulturalizm sözün hərfi mənasında "çoxmədəniyyətlilik" anlamına gəlir. Multikulturalizm siyasəti dedikdə isə, bir dövlətin sərhədləri çərçivəsində müxtəlif mədəniyyətlərin qorunması, inkişafı və təbliğinə yönəlmiş humanist və demokratik dövlət siyasəti nəzərdə tutulur.

Bu gün Qərb dövlətlərinin əksəriyyəti multikulturalizm siyasətinə qarşı çıxırlar və bunun iflasa uğradığını vurğulayırlar. Bir çox dövlətlər gəlmə mədəniyyətlərin yerli əsas mədəniyyəti dəyişdiyinə və ya məhv etdiyinə inanırlar. Bu səbəbdən də Avropada getdikcə ksenofobiya,islamofobiya və nasizm artmaqdadır.

Avropada baş verənlərin əksinə olaraq, bu gün Azərbaycan öz multikulturalizm modelini dünyaya təqdim etməkdədir. Azərbaycanın bu sahədəki təcrübəsi kifayət qədər zəngindir və qədim tarixə malikdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında daima vurğulayır ki, multikulturalizm Azərbaycanda həyat tərzidir, dövlət siyasətidir və alternativi yoxdur.Azərbaycanın multikulturalizm dəyərlərinə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən yüksək dəyərləndirilir. Müasir gərgin beynəlxalq şəraitdə Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğati və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Hazırda ölkəmizin təcrübəsi tədqiqat obyektidir, bir çox ölkələrdə öyrənilir və tədris edilir. Bu istiqamətdə əməkdaşlığa maraq artır və ilbəil əlaqələr genişlənir. Azərbaycan xalqı birgəyaşayış təcrübəsi və həyat tərzi ilə sübut edir ki, multikulturalizm yaşayır və onun gələcəyi də vardır. Multikulturakizmi qəbul etmək və təbliğ etmək lazımdır.

Biz elə bir ölkədə yaşayırıq ki,burada hətta ruslar da "salama" "aleykumsalam" deyə cavab verirlər,burada bir partanın arxasında Əli və Aleksandr oturur,musəlman pasxa bayramını maraqla gözləyir ki qonşusu rus nənə ona pasxa şirniyyatlarından verəcək,ruslar isə Novruzun gəlişini səbirsizliklə gözləyir,bilir ki, azərbaycanlı qonşusu milli şirniyatlarla qonşusuyla bayramlaşmağa gələcək.

Bax budur çoxmillətli Azərbaycan reallığı!

***Svetlana Verdiyeva,***
***RİH başçısı aparatının***
***hüquq şöbəsinin müdiri***

## Xəbərlər



# Şəmkir və Tovuz rayonlarını birləşdirən Zəyəmçay üzərində yerləşən qəzalı körpü bərpa edilib





Şəmkir və Tovuz rayonlarını birləşdirən Zəyəmçay üzərində körpünün bərpası işləri "Azəravtoyol" ASC tərəfindən yekunlaşdırılıb.

ASC-nin mətbuat xidmətindən bildirilib ki, Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 427-ci kilometrində yerləşən körpüdə bərpa işləri yüksək keyfiyyətlə aparılıb.

Bərpa işləri zamanı mövcud tikinti norma və qaydalarına əsasən körpünün hər iki tərəfində 50 metr uzunluğunda, 9 metr hündürlükdə mühafizə və yeni sutənzimləyici qurğular inşa edilib. Bundan başqa, körpünün yerləşdiyi ərazidə çay məcrasında su axınının sürətini azaltmaq məqsədilə dərinlik boyu hündürlüyü 1,2 metr artırılmaqla və örtük hissə bərpa edilməklə bərkitmə işləri aparılıb, 6 pilləvari qurğu inşa edilib.

Qurğuların hündürlüyü 22 metr, ümumi uzunluğu 60 metr, eni isə 118 metrdir. Həmçinin körpünün dayaqlarının qorunması üçün 110 metr uzunluğunda, 90 metr enində dəmir-beton konstruksiyadan ibarət xüsusi qoruyucu sahə inşa edilib.

Qeyd olunub ki, cari ilin iyun-iyul ayları ərzində Şəmkir rayonu ərazisində sel suları nəticəsində yuyulma baş verib və körpü qəzalı vəziyyətə düşüb.

2011-ci ildə inşa edilmiş 3 aşırımlı körpünün uzunluğu 96,3 metr, eni 11,5 metr, çay məcrasından hündürlüyü isə 11 metrdir. Zəyəmçay üzərində inşa edilən körpü 377 min nəfər əhalinin yaşadığı Şəmkir və Tovuz rayonlarını birləşdirən yeganə körpüdür.

# Mal-qaranın cins tərkibi yaxşılaşdırılır



***Rayonumuzda heyvandarlığın inkişafı diqqət mərkəzində saxlanır. Son illər rayonda istər iribuynuzlu mal-qaranın, istərsə də qoyun və keçilərin sayında dinamik artım müşahidə olunur. Qışlama dövründə heyvanlar arasında yarana biləcək xəstəlikləri vaxtında aşkarlamaq üçün rayon baytarlıq idarəsində növbətçilik rejimində çalışacaq epizootik qrup yaradılıb.***

Cari ildə epizootik plana əsasən, baytarlıq tədbirləri tam başa çatdırılıb. Profilaktik tədbirlər nəticəsində rayon ərazisində hər hansı infeksion xəstəlik qeydə alınmayıb. Tovuz rayonunda 45 min baş iribuynuzlu, 230 min başadək xırdabuynuzlu heyvanın sağlamlığı istiqamətində baytarlıq idarəsi tərəfindən tədbirlər görülür.

Fermer Yunis Tanrıverdiyev bildirib ki, respublikamızda kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər rayonlarda da bu sahəyə müsbət töhfə verir. Tovuzda mal-qaranın cins tərkibini yaxşılaşdırmaqla yüksək məhsuldar heyvanlar əldə edilir. Rayonda 491 baş iribuynuzlu heyvan süni mayalandırılıb ki, bu da cins tərkibin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayır.

Bundan əlavə, "Aqrolizinq" vasitəsilə rayona 260-dan çox ətlik və südlük cins iribuynuzlu gətirilib ki, onlardan alınan törəmələr də heyvandarlığın inkişafına töhfə verir. Hazırda mal-qaranın 20-25 faizi cinsləşdirilib.

Tovuz Baytarlıq İdarəsinin rəisi Zülfüqar Kərimov deyib ki, qışlama dövrünün başlaması ilə əlaqədar rayonda heyvanlara gündəlik baytarlıq tədbirləri göstərmək üçün sahə baytar həkimlərinə və feldşerlərə xüsusi göstərişlər verilib. Hər hansı çağırış olarsa, dərhal xidmət göstəriləcək.

1-1_tovuz.qxd 10.01.2017 11:20 Page 5



## Babalar belə söylərdi

# Tarixin izləri və Tovuzun "qəlpələri"

*Bəllidir ki, tarixi Şəmsəddin sultanlığının ərazisi onun varisi olan indiki Tovuz rayonumuzdan 4-5 dəfə böyük idi. Kiçik Qafqaz sıra dağlarının Murğuz, Şah dağı, Kotan dağı, Göydağ silsilələri daxil və Şəmkir çayı, Zəyəm çayı, Əsrik çayı, Axıncı, Tovuz çayı, Həsənsu, Ağstafa çayı boyunca sərhədləri uzanır, bəzən Tiflisin divarlarına qədər gedib çıxırdı. Ellərimiz aranlı-yaylaqlı idi. XIX əsrdə və XX əsrin əvvəllərinədək indiki Gədəbəyin Şınıx bölgəsi sultanlarımızın nəsil şəcərəsinə daxil olan Öysüzlü bəyliyinin dağ bölgəsi üzrə əsas mərkəzlərindən biri olmuşdur. Bizim Qızıl Alının, Alisgəndər bəyin, Allahqulu bəyin orada camaata etdiyi yaxşılıqlar, onların xeyirxonluğu dastana çevrilib bu gün də söylənir.*



Öysüzlü Usub bəy

**1930**-cu il avqust ayının 8-də keçmiş SSRİ-nin hər yerində olduğu kimi inzibati ərazi bölgüsü olaraq Tovuz rayonu təşkil olundu və sahəsi cəmisi 1,9 min kvadrat kilometr saxlandı. Qəbiristanlığı, xeyri-şəri bir olan Şınıx bölgəsi də hələ qəzalar və nahiyələr təşkil olunan dövrdə kəsilərək qonşu rayonun ərazisinə daxil edildi. Yaranışından bəri qanbir qohum olan insanlarımız yenə də bir-birindən ayrılmadı. Heç də təsadüfi deyil ki, o dağ insanlarımız babalarının yolu ilə gedərək öz nəsil ağaclarını tərtib edir, Tanrı vergisi olan qohumluq tarixlərini gənc nəslə ləyaqətlə ötürürlər.

Bu günkü Axıncı-Tovuz çay hövzələrində yaşayan köklü insanların ulu babaları Nuralıdı (Tovuz şəhərinin həndəvərində-Qazıqulu səmtdə Nuralı çinarı ötən əsrin 40-cı illərinədək hələ dururdu). O Pirin 3 oğlu olmuşdu: Xanalıdan törəyənlər indiki Qazıqulular və Şınıxlılar, Alıdan olanlar Əlibəyli-Qışlaqlılar (günü bu gün də ətraf elatın adamları Əlibəyliyə "Alıbəyli" deyir), Həsəndən olanlar Öysüzlülərdir- Ağstafadakı Yaradullu, indiki Tatlı və Həsənsu boyunca çoxlu nəsilləri də daxil etməklə.

İndiki Tovuzluların bir qismi müxtəlif dönəmlərdə ayrı-ayrı nəsil və şəxsiyyətlər şəklində tarixi Şəmsəddin sultanlığı və mahalının müxtəlif guşələrinə, dünyanın və Azərbaycanın bir çox bölgələrinə gedib orada məskunlaşıblar. Axı, oraların hamısı Vətən torpaqları idi və insanlarımız da öz diyarlarında əmin-arxayın kök salıb yaşayırdılar. İndi, maşallah, bir kişidən bir kənd, bir oba əmələ gəlibdi. Tovuzluların "qəlpələri" haqqında araşdırmamıza başlayırıq.

**Yazılı mənbələrdən və ağsaqqallardan əldə etdiyimiz məlumatlar əsasında indiki Gədəbəy rayonunun hüdudları daxilində olan Cücənli, Qaravəllər, Mormor, Fərzalı, Qasımağalı və Yaqublu (Şəkərbəy İƏD-də), Qoşabulaq, Moruqlu, Pərizamanlı, Samanlıq, Sonalar (Hacılar İƏD-də), Şınıx (Göyəli İƏD-də), Ağamalı, Yevlağın Cırdaxan, Göranboyun Xınnalı, Şəmkirin Qıraq Bayramlı, Çırdaxan... kəndləri ilə və Bərdənin Boyəhmədlisində Bozaxlarla qohumluqdan danışacağıq. Bizim topladığımız bunlardır. Kökü Tovuzdan olan, ayrı-ayrı bölgələrdə toplu halda məskunlaşan doğmalarımız isə dediklərimizdən dəfələrlə çoxdur. Onları axtarıb soraqlamaq, ata ocağını tanıtmaq bizim vəfa borcumuzdur, axı, gəlmişəkeçmişə qiymət verməyəni, tarixini unudanları Tanrı bağışlamaz. Cənab Əlinin belə bir kəlamını da yaddan çıxartmamalıyıq ki, haradan gəldiyini, harada olduğunu, haraya getdiyini bilməyənlərə Allah qənim olacaqdır!**

**Ona görə sizləri də bu müqəddəs işə qoşulmağa çağırırıq. Gəlin, Sizə məlum olanları möhtərəm oxucularla bölüşün.**

### Əlibəylidən pərvazlananlar və bəy ləyaqəti

Bu günki Əlibəyli İnzibati Ərazi Dairəsinin Mülkülü kəndindəkiləri nəzərə almasaq təkcə Əlibəylidəki Qışlaq və "Kənd yerində", "Başı kəsikdə" olmaqla 5 qəbiristanlığı var. Onların bəzisinin tarixi qədimdir və bu, göstərir ki, orada əhali vaxtilə gur məskunlaşmışdı. Miqrasiya nəticəsində adamlar yurdunun bir yanından o biri tərəfinə gedib yaşayırdılar. Zaman elə gətirirdi ki, var-dövləti artırmaq, öz imkanlarını genişləndirmək üçün gedib torpaqlarının digər yerində yurd salır, həm özləri, həm də var-dövlətləri artıb-çoxalır, dünyayla bir olurdular...

Əlibəylinin köklü insanlarından olan bəyləri öz gündəlik güzəranı və davranışları ilə başqalarından seçilmirdilər. İliklə-qanla gələn halallıq, gözütoxluq (bizim Tovuzun bəylərinin hamısı insaflıydı, ac qarınları doyurar, kasıba dayaq olardılar. Sultanlarımızın nəsil şəcərəsinə mənsub olan Öysüzlünün axırıncı bəy qardaşları-Nəsib bəy və Usub (Yusif) bəy daim yetim başı sığallayır və tavanadan düşmüş kəndlini dirçəldirdilər. Dolanışığı kasadlaşanı bəy çağırıb deyərmiş ki, al bu 10 qoyunu-apar özün üçün saxla. Quzusu da, südü də, yunu da sənin olsun, gələn il bu vaxt verdiyim qoyunu qaytararsan. Vədəbaşı kəndli gələrmiş ki, a bəy, Allah balanı saxlasın, əlimə qoyun saldım, sənin əmanətini aparım hansı sərkərə təslim eləyim? Bəy deyərmiş ki, qaytarıb sərkərə təhvil vermək lazım deyil, qoyun-quzu gəlmiş ola, da qaraqundaqlıda, ya tatlıda-kürtlüdə, ya hansı tirədəsə filankəsin qapısına qoy o da dolansın. O dəstiri həminki şərtlə və 10 qoyun-10 qoyun olmaqla bəyin varı kəndin bir ildə bir neçə imkansız "öylərini" dolanarmış və camaat da güzəran taparmış. Burada özümü saxlayammayıb Dədə Mikayıl Azaflının ölümsüz misralarını dilə gətirmək istəyirəm:

*Yaxşılığı yerində et,*
*Dost unutmaz, yad itirməz,*
*İmkanınla köməksizin,*
*İmdadına çat-itirməz.*

Onlar bəy ləyaqətini hər şeydən uca tuturdular. Elədiyi yaxşılıqlar da özlərinin qabağına gəldi, camaat qoymadı onlar güllələnsin.) əsilzadələrimizin mayasındaydı. Bax bizim bəylər belə ağa-bəy olublar.

Sovet hökuməti qurulanda və repressiya illərində Əlibəyli bəylərindən 21 nəfərini yığıb o vaxtkı Əlibəyli məktəbinin (indiki Q.Rzayev adına Hacallı kənd orta məktəbin) həyətində güllələmişdilər. Camaat nə qədər desə ki, ay rus, vallah onların eləcə adı bəydi-bunlar "quru" bəylərdi. Kim idi o dövrdə deyilənə qulaq asan?!

Hər nəysə! Nə qədər qırıb çatsalar da Əlibəylidə bəy nəslindən olub indi yaşayan əhəl-cəhəli, əcəldən macal tapıb sağ qalanları hesablasan, maşallah olsun, az qala düz bir kənddilər.

Müxtəlif siyasi quruluşlarda məmurlar və buyruq qulları onları bəzən ökəşik, fağır sayıb həqarətlə üstdən aşağı baxıb, ancaq sovet hökumətinin kəshakəs və hörmətli vaxtlarında belə xalqın başından basanların, məmurların həmişə murazlarını gözündə qoyub və əmələ gəldiyi torpağın satılmasına heç vədə yol verməyibdi. Onların torpağında Ermənistan üçün aeroport tikmək istəyəndə Əlibəyli camaatının ayağa qalxaraq necə əlbir-dilbir olduqları o vaxtkı SSRİ-yə səs saldı... Yumşaq olduğu qədər də sərt və təpərli olan Əlibəyli xarakteri bax belədir.

**Müəllifin zəruri qeydi.** O tamam başqa mövzudu ki, bölgəmizdə bəyliyin mərkəzi Öysüzlü idi və "rus gələndə" bəyləri "troykanın" qərarı ilə güllələyib imarətlərini dağıtmaq istəyəndə "qızılgöz-qırmızı göz" Öysüzlü (səslənməsi indi qulağa bir cür gələn, əslində isə onların düzlüyü və qorxmazlığını bariz şəkildə ortaya qoyan bu təlğə xalqın çox sərrast şəkildə ifadə elədiyi keyfiyyətdir) camaatı və onun ləngərli ağsaqqalları kükrəmişdi ki, biz bəylərdən yaxşılıqdan savayı (bəylərimizin bəyliyi, əsil kişi hərəkətləri barədə yazmaq, dediyimiz kimi, boyun borcumuzdur, sağlıq-salamatçılıq və dost deyən olsun!) heç bir pislik görməmişik. Heç vədə qoymarıq ki, onları bizim gözümüzün qabağında gülləleyib qanını bu torpağa tökəsiniz. Bu kənddən çıxarıb aparın, neyləyirsiniz - eləyin, ancaq yol verməriк burda onların başından bir tük əskik ola.

Xalqın direnişi qarşısında geri çəkilən rus (əslində onlar rus-filan deyildilər, sapı özümüzdən olan bolşevik "baltalarıydı" və təzə hökumət "Rusetdən gəldiyinə" görə və o dövrdə tez-tez səslənən "Yaşasın Rusetdən gələn şura hökuməti!" şüarına qulaqları artıq alışdığına görə, elə bilirdilər, divan adamlarının hamısı rusdur) Öysüzlüdə heç kimi gülləleyə bilmədi-bəylərin şahanə imarətləri isə məktəb olaraq 70 il, xəstəxana kimi isə günü bu gün də xalqın xidmətindədir...

Başqa kəndlərdə və bölgələrdə isə hələ 1917-ci ilin axırı, 1918-ci ilin qışından başlayaraq ağa, bəy və əsilzadələrimiz fitnəkarlıqla öldürüldü, malı-mülkü talan edilib yandırıldı, yurdları xaraba qoyulub xanımanı dağıdıldı-xalqın əlinə keçməsin deyə. Bozalqanlı rəhmətlik şair Xəyyat Mirzə 1918-ci ildə yana-yana yazmışdı:

***...Sizə vəsf eyləyim gözəl bəyləri,***
***İddia etməyin istəmir yeri...***
***Allahyar bəy cəmi Qafqaz sərdarı,***
***Elədiniz xak ilə yeksana, millət.***

***Neyləmişdi sizə Məhəmməd Ağa?***
***İslam təssübündə bənzərdi dağa.***
***Od vurdunuz dama, bağçaya, bağa,***
***Mülkünü etdiniz virana, millət.***

***Bəs nəyiydi Avıl bəyin günahı,***
***Niyə unutdunuz qadir Allahı?***
***Mehralı bəy cəmi İslam pənahı,***
***Deyirlər keçibdi İrana, millət.***

***Həmid bəy bir şaha bərabər idi,***
***Fağır-füqaraya pəriskar idi,***
***Söyün bəy çox yaxşı dilavər idi,***
***Atdınız atəşi-surana, millət...***

O dövrdən salamat qalanlar da sonra "rus gələndə" - sovet hökuməti qurulandan sonra badi-fənaya verildi.

...Əlibəyli toponimi və adına Azərbaycanın ayrı-ayrı yerlərində çoxlu kəndlər, nəsillər, soyadlar var və onların bəzilərinin nümayəndələri Tovuzumuzun şöhrətli Əlibəyli kəndi ilə (1905-ci və 1918-ci il erməni - müsəlman davasında və 1989-cu ildən başlayaraq Vətən müdafiəsinin qəhrəmanlıq dastanına Əlibəylilər öz adlarını qızıl hərflərlə yazdılar) tarixi qohumluq tellərindən fəxrlə danışırlar...

### Cücənli qohumlar

Gədəbəy rayonunun Şınıx bölgəsindəki İsalı İnzibati Ərazi Dairəsinin Cücənli (Cücənli) kəndi Əlibəylilər tərəfindən salınmışdır. Həmin kənd Axıncının sahilində, Şahdağ silsiləsinin ətəyində-babalarımızın tarixi yaylaq yerlərinin həndəvərindədir. XIX əsrin əvvəllərində Öysüzlü bəyləri ilə qonşu və qohum olan Əlibəylinin bəylərindən Cücən bəy (adın arxaikliyinə və koloritinə fikir verin! Türk-monqol sərkərdəsi Cuçi bahadırla, Cucan xanla, Cuçi (Qovların altında da Cücü dərəsi var) tayfası ilə, Curcan dənizi ilə (Xəzər dənizi), XII əsrin məşhur tarixçisi Cuzcanla bağlılığı ortadadır. Milli kimliyin nişanəsi olan bu arxaik "Cücən" adının buralarda yayılmasının tarixi ən azı 1000 ilə gedib çıxır) gəlib burada binələnərək kənd salmışdır. Bəyin törəmələri, onun başına toplaşan qohumları bu gün böyük bir kəndə çevrilmişdir. Cücənli bəyləri hər yanda "süfrə salıb-ad almışlar."

Sonralar Cücən bəyin övladları budaqlanaraq yenidən Tovuzun ayrı-ayrı kəndlərinə, Tovuz şəhəri də daxil ölkənin başqa şəhərlərinə yayılmışlar. Cücənlilərdən dövrünün ayıq adamları, çevik ağıla və düşüncəyə sahib insanlar yetişmiş, çoxlu şöhrətli şəxsiyyətlər formalaşmışdır. Cücənli bəylərinin şəxsiyyəti, şöhrəti öz yerində, bu kəndin və nəslin xanım-xatun qadınları da ləyaqətli övlad yetişdirməklə, əri- evin kişisini başının tacı bilməklə şöhrətləniblər. Hələ oralarda belə bir zərbməsəl dillərə düşüb ki, oğul övladını kişi kimi görmək istəyən kəs gərəkdi Cücənlidən qız alsın. Ona görə Əlibəyli Hacı Nağı da hələ XIX əsrin axırına yaxın qohumluğu təzələyərək öz nəvələrini Cücən bəyin qız törəməsiylə evləndirmiş və ondan da hörmətli-şöhrətli Mehdiağalı, Sadıqağalı, Əhmədağalı nəsli inkişaf etmişdir.

Cücənlilər də harada olur-olsun öz sümüklərini -Əlibəyli qohumluqlarını heç vədə unutmadılar. Onlar həmişə ağır oturub durmaqları, məişətdə, birgə yaşayışda Əlibəylidən olan ulu babalarının adına və öz köklərinə sadiqliyi ilə başqalarından fərqləndilər.

Yaddan çıxmamış deyim ki, Cücənli kəndinin adı rəsmi yazılışda gah Cüncübəy (1917), gah Cucanlı (1979) şəklində getmişdir.

Üstündən xeyli vaxt keçməsinə, çoxlu nəsillər bir-birini əvəz etməsinə baxmayaraq Cücən bəyin törəmələri ilə indiki Əlibəylilərin qohumluq əlaqələri nəinki qırılır, günü bu gün də dönüm-dönüm qohumlaşırlar-qohumluq daha da təzələnir. Bu da bəyliyin ortada olan bir nişanıdır.

Təki belə ola həmişə!



**Bəhruzər Rüstəmov.**

1-1_tovuz.qxd 10.01.2017 11:20 Page 6



*Tovuzu tanıdan tovuzlular*

# Onu siz də tanıyın



**Almaniyada yaşayan qürur duyulacaq həmyerlilərimizdən olan Pərviz Əmiraslanovu siz də tanıyın. Pərviz Əmiraslanov texnika elmləri doktorudur. Almaniya Mühəndislər Birliyinin həqiqi üzvüdür. 70-dən çox elmi və metodik işi vardır, 5 patent alıb.**

1998-ci ilin iyul ayında Azərbaycan Texniki Universitetində çalışarkən Alman Akademik Mübadilə Xidmətinin elmi təqaüdünə layiq görülüb. Təqaüd proqramına uyğun olaraq 10 aylıq Almaniyanın Braunşvayq Texniki Universitetinə elmi araşdırma üçün gedib. Tale elə gətirib ki, elmi təqaüd müddəti başa çatdıqdan sonra da Almaniyada qalıb. 1999-cu il avqust ayından 2000-ci il yanvar ayının sonuna kimi Alman Akademik Mübadilə Xidmətinin və Almaniya Aşağı Saksoniya əyalətinin dəstəyi ilə Braunşvayq Texniki Universiteti üçün böyük elmi layihədə iştirakçı və sonralar layihə rəhbəri olub. Daha sonra isə Braunşvayq Texniki Universiteti tərəfindən iş müqaviləsi təklifi alıb. Həmin vaxtdan ailəsi ilə birlikdə Almaniyada yaşayır və işləyir.

Əmiraslanov Pərviz Arzuman oğlu 1971-ci il iyulun 28-də Tovuz rayonunun Sarıtala kəndində anadan olub. 1978-ci ildə Sarıtala kənd orta məktəbinə gedib və 1988-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirib. Sonra Qovlar qəsəbəsindəki 98 nömrəli Orta Texniki Peşə Məktəbinə daxil olub və 1989-cu ildə buranı fərqlənmə diplomu ilə bitirib. Oxuduğu müddətdə dəfələrlə fənn olimpiadalarında fəal iştirak edib. 1989-cu ildə Azərbaycan Texniki Universitetinin maşınqayırma fakültəsinə daxil olub. Tələbəlik illərində də biliyi ilə fərqlənib, dəfələrlə olimpiada qalibi olub. Tələbə ikən 2 elmi məqaləsi çap olunub. 1994-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirib.

Azərbaycan Texniki Universitetinin Maşınqayırmada avtomatlaşdırılmış layihələndirmə kafedrasında tədqiqatçı-mühəndis kimi əmək fəaliyyətinə başlayıb. 1995-ci ilin oktyabrında həmin kafedrada laboratoriya müdiri vəzifəsinə təyin olunub. 1996-cı ildə Azərbaycan Texniki Universitetinin aspiranturasına daxil olub. İşlədiyi müddətdə universitet və respublika konfranslarında iştirak edib, məqalələri çap olunub. "Metalkəsən dəzgahların mexaniki ötürmə mexanizmlərinin avtomatlaşdırılmış layihələndirilməsi" adlı metodik vəsaitin (1997) və Azərbaycan dilində ilk dəfə olaraq "Maşınqayırmada riyazi modelləşdirmə" adlı kitabın (1998) müəllifidir.

1999-cu ildə Almaniya Federativ Respublikasına getdikdən sonra qazandığı təqaüd proqramı çərçivəsində Hannover şəhərində Lazer Mərkəzi və digər sənaye profilli elmi-tədqiqat işlərində əvvəl yardımçı, kiçik və daha sonra isə böyük elmi işçi işləyib. Bu işlərin elmi nəticələrinə əsasən Braunşvayq Texniki Universitetində elmi işçi olaraq işə götürülüb. 2001-ci ilin aprelində Braunşvayq Texniki Universitetinin maşınqayırma fakültəsində "Avtomobil hissələrində lazerlə pardaxlama prosesinin modelləşdirilməsi" mövzusunda dissertasiya müdafiə edərək doktor tituluna layiq görülüb. 2002-ci ilin mart ayında Braunşvayq Texniki Universitetinin təhsil şöbəsinin və Almaniya Aşağı Saksoniya əyalətinin Təhsil Nazirliyinin birgə qərarı ilə dosent olaraq dərs deməyə başlayıb. Dərs dediyi müddətdə dəfələrlə universitet tərəfindən müxtəlif diplomlara layiq görülüb. 2003-cü ilin dekabrından Almaniya Mühəndislər Birliyinin həqiqi üzvüdür.

Sənaye profilli elmi-tədqiqat işlərinə Almaniya Dövlət Patent İdarəsi tərəfindən yüksək dəyər verildiyi üçün "Siemens VDO Automotive AG" firmasının təklifi ilə 2005-ci ilin yanvarında firmada ali məktəblərlə elmi iş üzrə şöbənin rəisi vəzifəsinə işə götürülüb. Eyni zamanda Braunşvayq Texniki Universitetində mühazirə oxumaqda davam edib. 2007-ci ilin sentyabr ayından "DaimlerChrysler AG" (Mercedes) firmasında elmi tədqiqat və inkişaf departamentində qrup rəhbəri vəzifəsinə qəbul edilib. Burada üçillik əmək fəaliyyətindən sonra 2010-cu ildən etibarən Almaniyanın digər avtomobil şirkəti olan "Volkswagen AG" şirkətinin elmi-tədqiqat və texniki inkişaf idarəsində mütəxəssislər qrupunun rəhbəri olub. 2012-ci il yanvar ayından bu günə qədər isə həmin idarədə şöbə müdiri vəzifəsində çalışır. Onun rəhbərlik etdiyi şöbədə yeni avtomobillər üçün intellektual və innovativ texnologiyalar nəzəri cəhətdən araşdırılır və praktik sınaqdan keçirilir. Eyni zamanda Braunşvayq, Klausthal Texniki universitetlərində və Wolfenbüttel Ali Texniki Məktəbində saathesablı mühazirələr oxuyur və bu məktəblər üzrə işçi qupunun rəhbəridir.

70-dən çox elmi və metodik işi vardır, 5 patent alıb.

***"Tovuzlular" saytından***



# Əli Cavan- "Şərqin Eynşteyni". Tanıyın və qürurlanın!

Dünyaca məşhur alim, fizik, ABŞ Milli Elmlər Akademiyasının üzvü. Milliyyətcə azərbaycanlıdır.

1926-cı ildə Tehranda doğulmuşdur. Bir il Tehran Universitetinin fizika fakültəsində oxumuşdur.

1948-ci ildə ABŞ-a köçmüş, burada ali təhsil, sonra fəlsəfə elmləri doktoru elmi dərəcəsi almışdır.

34 yaşında professor olan Əli Cavan kvant elektrnikası və lazer spektroskopiaya sahəsində tədqiqatlar aparmışdır.

Dünyada ilk dəfə helium-neon (qaz) lazerini kəşf edib.

Onu "Şərqin Eynşteyni" və "Lazerin atası" sayırdılar.

Dünyanın ən nüfuzlu elmi mükafatlarından olan "Albert Eynşteyn" , "Stüart Ballantayn", Amerika Optik Cəmiyyətinin "Frederik Ayvs" medallarına, "Uillis Lemba" mükafatının layiq görülüb.

Massaçusets və Kembric Universitetlərinin professoru olub.

Sağlığında The Daly Telegraph qəzetinin "Dünyanın yaşayan 100 dahisinin siyahısı"nda 12-ci yeri tutub.

12 sentyabr 2016-cı ildə Los-Ancelesdə vəfat edib...

# NASA-dakı yeganə azərbaycanlı




Teymur Sadıxov Bakı şəhərindəki 211 saylı orta məktəbin məzunudur. O, orta məktəbi 9 ilə başa vurub. Dünyada tanınmış İstanbul Texniki Universitetin 240 illik tarixi ərzində ilk və yeganə ən yüksək ballı məzunudur. Teymur İstanbul Texniki Universitetinin bakalvriat səviyyəsində dövlət xətti ilə təhsil alıb, ABŞ-ın Corciya Texnologiya İnstitutunun magistraturasında təhsilini Dövlət proqramı ilə davam etdirib. Hazırda Corciya Texnologiya İnstitutunun doktorantura (Phd) səviyyəsində təhsil alır.

Ədəbiyyat səhifəsi

# Yaşıl pasport

Əcnəbi ölkənin gömrük məmuru,
Sən mənim ölkəmə balaca baxma,
Azərbaycan adlı bir ünvanım var,
Azad bir ölkənin vətəndaşıyam.

Əcnəbi ölkənin gömrük məmuru,
O yaşıl pasporta gözucu baxma.
Ağır keçmişim var, ağır çəkim var,
Möminə Xatunum, Şirvanşahım var.
O yaşıl pasportu mənəm daşıyan.

Mənim Qız Qalam var, mənim Bakım var
Yadelli düşmənə sinələr gərdim,
Mənim də yurdumun ağır illəri,
Mənim də tarixdə öz işgəncəm var.

Mənim öz Göygölüm, öz Ceyrançölüm,
Mənim Şamaxım var, mənim Gəncəm var.
Nəsimi soyuldu, doğrandı Babək,
Azadlıq qanınla bir vursun gərək.

Qələm əvəzinə yazan qılıncım,
Hünərim, qeyrətim, adım-sanım var.
O yaşıl pasportu mənəm daşıyan,
Azərbaycan adlı bir ünvanım var.

Bir şanlı tarixəm, şah ölkəsiyəm,
İsmayıl adında şahənşahım var.
O yaşıl pasportu mənəm daşıyan,
O hünər , o mərdlik , qürur qanımda.

Möhtəşəm bir tarix vurur qanımda,
Mən Şah İsmayılın Qızılbaşıyam...
O yaşıl pasportu mənəm daşıyan...
Mənim də pirim var, qibləgahım var.



**Mikayıl İlhamlı**

O yaşıl pasportu mənəm daşıyan...
Mürəkkəb yerinə axan qanım var,
Mənim dərd-davalı öz nağıllarım,
Mənim faciəvi dastanlarım var.

O yaşıl pasportu mənəm daşıyan,
Önündə əcnəbi bir şəxsiyyət var,
Bizim ölkəmizdə sizə hörmət var.
Çaşıb düşünərsən, birdən, naşıyam.

O sənsən, bu mənəm, sözün varsa de!
O yaşıl pasportu mənəm daşıyan.
Möhür vurmamağa üzün varsa, de!
Bu pasportun üzü yaşıl olsa da.

Onun vərəqindən qan iyi gəlir.
Onun yaşıl rəngi mənim dinimdir,
Gördüyün hərflər mənim dilimdir.
Onun dövlət gerbi urəyimdədir.

Mənim öz ölkəm var, öz torpağım var,
Dünyada ən uca bir Bayrağım var.
Müstəqil ölkədə mənəm yaşayan.
O yaşıl pasportum yaman ağırdır.

O pasport ağırdır əl baqajımdan,
O pasport ağırdır hava yükümdən,
O pasport ağırdır mənim çəkimdəm,
O yaşıl pasportu mənəm daşıyan.

Elə bil, bir dağ var kürəyim ustə,
Onu daşımaqdan ciynim yağırdır...
O, bir parçasıdır Azərbaycanın.
Mən onu itirsəm, demək heç kiməm.

Onu saxlayıram ürəyim ustə
Demək pasportum var, vətənim vardır.
Müstəqil ölkənin azad yarpağı,
Müstəqil ölkənin azad bulağı.

Müstəqil ölkənin azad torpağı,
Müstəqil ölkənin vətəndaşıyam.
O yaşıl pasportun ünvanı, yeri
Sinəmdə döyünən ürək üstədi.

Nə mən günahkaram uca boyluyam,
Nə sən günahkarsan, boyun bəstədi.
Başını qaldırıb mənə baxsana!..
Yaxşı görmürsənsə, eynək taxsana!..
O yaşıl pasportu mənəm daşıyan!..



# "Könlüm məhəbbətin harayındadır" kitabı haqqında bir neçə söz

Orda, uzaqlarda bir yer var... Orda xoşbəxtlik var...Orda sevənlər "həsrət", "hicran" sözlərini bilmirlər. Orda hamının bildiyi nağıllarda küpəgirən qarılar, divlər, zülmət sehrkarları yoxdur... Orda...

Oranın hara olduğunu da bilsək yaman olardı. "Hər kəs" və ya "heç kəs" olur həmişə dünyamızda. Nə qədər ki, özümüzün bu dünyaya gərəkli olduğumuzu bilirik, özümüzə güvənirik, onda "hər kəs" dünyamızın bir hissəsi, müəyyən dərəcədə anlamıdır... Ta o zamana qədər... O zamanda ürəyimizin "yükünü" çəkəmmirik. Düzü, çəkirik ey... Guya çəkməkdən başqa çarəmizmi olur?! Sadəcə, gözümüz dörd olur ki, görəsən, daha kim "ürəyini" söykəyəcək ürəyimizə? Bir də baxırıq, "heç kim" ... Onda da başlayırıq üşüməyə... Elə bil Sinan padşahın qırx arşınlıq quyu-zindanının dibinə düşmüşük... "Bəxt" sözünü yalnız o qırx arşınlıq quyunun dibində yada salırıq. Oluruq: BƏXTSİZ...

"Bəxtsiz" olduğum bir zamanda Mehman Rasimoğlunun "Könlüm məhəbbətin harayındadır" kitabını vərəqləməyə başladım. Rastıma çıxan bu misraya "sığındım"...

Mən bəxti keçələm, sən qaravəlli...

Keçəllərin bəxti gözəl olsa da, qaravəllilər bitməzliyi ilə ürək üzə bilir bəzən...Dolayısı ilə, bəxtinə çıxan sevdalısının əlçatmazlığını demək istəyir Mehman burada. Özünü istəyinə çatmağının arzuları ilə aldatdığını da gizlətmir gənc şair. O qədər beynində vüsal ümidləri yaşayır ki...

***Kölgəmi arxamda agörsəm nə zaman,***
***Sanıram arxamca yar gəlir, gülüm...***

Bundan sonrası onun qurduğu ümidlərdə yıxılmasıdı daha... Türk dünyasının görkəmli folklorşünas alimi, professor Sədnik Paşa Pirsultanlı "Koroğlu" eposundan danışarkən qəribə bir epizodu xatırlamışdı bir dəfə.

-"Koroğlu" eposundakı aşıq havalarını araşdırırdım. Gəlib, gəlib "Şirinqala" havasında, elə bil, üzü yoxuşa dirəndim. Koroğlunun adıyla bağlı bütün havaların ruhu döyüşkəndir, "ölləm-öldürrəm" deyir. Təkcə, "Şirinqala" adamı ağladır. Ağladır nədi ey... Adamın ürəyini çəkir. Dedim, görəsən, bu boyda paşalara, xotkarlara qan udduran Koroğlu nəyə ağlayıb belə? Bir gün yolum Tovuza düşdü. Getdim, "Şirinqala" əfsanəsini eşitdim. Onda anladım ki, adam kim olur-olsun, nəçi olur-olsun, onu nakam məhəbbət həmişə ağladır.

Sədnik Paşa Pirsultanlı düz deyirdi... Ayrılıq qoxan misralar qədər heç bir şeirə başını qoluna söykəyib ağlamırsan. Mehmanın da belə "çarəsiz", "ayrılıqdan" qorxub boynunu bükən misraları var. O misralardakı ayrılıq qorxusu gənc şairi məcbur edir ki, üsyan etsin:

***Ya gəl öldür məni, ya qır tilsimi,***
***Apar! Apar məni sən olan yerə...***

Sevənlər o vaxt boynubükük olur ki, sevilənlər gedir, gedənlər dönmür... Dönən də artıq o sevgiyə layiq olmur. Və o gedişlə dönüş arasındakı zamanı "darıxmaq" feli ilə hərəkətə gətiririk. Yoxsa, o zaman keçmir... Yerindəcə dayanır... Mehmanın şeir dünyasında "darıxmaq" özü də hərəkət edir:

***Darıxmaq gör məni nə hala saldı,***
***Gözümlə hər yerə səni düzürəm.***

Bu göz önündə duran xəyallara aldandığını anlamağa da gecikmir şair. Qayıdıb bu xəyal quran aşiqəöz daxilinə baxır... Özünün "aciz"liyini etiraf edir:

Bomboş çərçivəyəm-içimdə xəyal...

Nəhayət, onu tərk edənin uzaqlaşan siluetini bir daha gözlərinə həbs edir. Arxasınca ürəyindəki narahatlığını dilə gətirir:

***Getdin?! Gözlərimin ağı, qarası,***
***Əlvida demədən hara gedirsən?!***

Gedən yolçunun onun səsinə geri dönüb kinayəli baxışlarla baxmağını isə qəbul edə bilmir. Sevgisini dilinə gətirdiyi üçün bu istehzanı haqsızlıq sanır özünə:

***Bülbül qondu öz gülünə-qovuşdu,***
***Mənim sənə "gəl" deməyim ar oldu?!***

Mehman Rasimoğlunun məhəbbətin harayında olan könlü onun sevgisinə cavab verməyən sevdalısından küsə bilmir, qara sevda yolunda çəkdiyi cəfalarla qürur duyur:

***Eşq halından can çəkirşən aşiqdən söhbət düşəndə,***
***Şükür edir öz halına Məcnun Mehman olan yerdə...***

Beləcə... Günlərdən birini də Tovuzlu Aşıq Əsəd Rzayevin nəticəsi Mehman Rasimoğlunun şeir dünyasına qatıb "ötürdüm" ömür yolundan... Şeir yolun uğurlu olsun, Mehman!

***Şəfa Vəli***

1-1_tovuz.qxd 10.01.2017 11:20 Page 8



Yeni kitablar

# “Çobanoğlu Məhəmməd”

***Bu adı Tovuzda çoxları tanıyır. Hələ Sovet dönəmində onun bişirdiyi “Kürə çörəkləri” bütün Azərbaycana yayılmışdı. Özünəməxsus bir üsulla bişirilən bu ətirli çörəklər, müasir dillə desək, Məhəmməd kişinin brendi idi. Müxtəlif vəzifələrdə çalışsa da onu məhz bu çörəklər məşhurlaşdırdı, şöhrətləndirdi.***

Yazıçı-publisist, “Tovuz” qəzetinin əməkdaşı Ramiz Çıraqlının növbəti “Çobanoğlu Məhəmməd” kitabında “Çörəkçi Məhəmməd”in uşaqlıq , gənclik illəri də maraqlı epizodlarla öz əksini tapmışdır. Kitabda ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə, o cümlədən Tovuzda yaranan çörək qıtlığı zamanı




Məhəmməd kişinin çörək təknəsi çox ac qarınları doyurdu.

Tovuz torpaqları erməni hücumlarına məruz qalanda Çobanoğlu Məhəmməd öz övladları ilə bərabər tez-tez sərhədlərdə keşik çəkən əsgərlərimizə baş çəkir, onların gündəlik ehtiyaclarının ödənməsi üçün əlindən gələni əsirgəmirdi.

Məhz buna görə də o, nəinki təkcə Əyyublu kəndində, eləcə də bütün Gəncəbasarda elin dərin hörmətini qazanmışdı. Öz ələçıqlığı, alicənablığı ilə seçilən bu insan həm də gözəl ailə başçısı idi. Övladlarının hamısına ali təhsil vermiş, nəslində böyük bir ziyalı ordusu yetişdirmişdir. Bütün bunlar kitabın sənədli povest hissəsində geniş şəkildə öz əksini tapmışdır.

Kitabın xatirələr bölümündə yaxın dostlarının, onu dərindən tanıyanların, övladlarının maraqlı xatirələri əsəri daha da maraqlı, obrazı daha canlı edir. “Çobanoğlu Məhəmməd” müəllifin sayca səkkizinci kitabıdır.

**Əfsanə Əfqanlı**

# Zəfəranın faydaları



***Qan təzyiqi və ürək sağlamlığı: Ürək sağlamlığının mümkün qədər yaxşı olması günümüzdə olduqca əhəmiyyətli bir yerə sahibdir və bunu etməyin ən sadə yollarından biri də gündəlik kalium qəbulunu artırmaqdır.***

Kalium bir damar genəldici olaraq vəzifə daşıyır. Zəfəran isə, kalium mənbəyidir.

Diabet: Doğru miqdarda manqan qan şəkəri səviyyəsinin optimal bir səviyyədə qalmasını təmin edə bilər.

Diabet günümüzdə olduqca təhlükəli və geniş yayılmış bir sağlamlıq problemidir. Zəfəran sayəsində qan şəkərinə, qandakı insulin və qlükoza səviyyələrinə nəzarət edərək ikinci dərəcəli şəkərdən uzaq dayana və bu xəstəliyin gətirdiyi simptomlardan da xilas ola bilərsiniz.

**Sümük sağlamlığı:** Zəfəranın tərkibindəki olan bəzi maddələr qida qəbulunu artırır və bu qidalardan biri də kalsiumdur. Orqanizmimizin yeməklərdən sonra, kalsium miqdarını yüksəldərək, sümükdəki mineral sıxlığını artıra və sümük əriməsi, ya da qocalığın gətirdiyi digər sümük problemlərindən uzaqlaşa bilərik.

Sinir funksiyası: B vitamini insan sağlamlığı üçün olduqca mühüm vitamindir və sinir sistemi üçün də olduqca əhəmiyyətli təsirləri mövcuddur. Daha spesifik olmaq istəsək, zəfəranda olan B6 vitamini sayəsində sinir sisteminin problemsiz işləməsini təmin edə, sinir sistemindəki problemlərdən qaynaqlanan bir çox təhlükəli və ölümcül xəstəlikdən uzaq dura bilərik.

# Allah rəhmət eləsin!

Tovuz Rayon İcra Hakimiyyəti başçısı Aparatının kollektivi iş yoldaşları Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

YAP Tovuz Rayon Təşkilatının kollektivi Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Elçin Qəhrəmanov və Tovuz Rayon Prokurorluğunun kollektivi, Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Şirzad Əsgərov və Tovuz Rayon Polis şöbəsinin kollektivi Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Paşa Muradov və MRX-nin kollektivi, Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Oruc Binnətov və RİH başçısının Qovlar şəhər İƏD üzrə nümayəndəliyinin kollektivi Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Binnət Hüseynov və Tovuz bələdiyyələrinin kollektivləri Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Nəsirəddin Aslanov, Elxan Əsgərov, Nizami Vəliyev, Azər Zeynalov Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Mübariz Salmanov, Məmməd Tağıyev Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Bəhram Pənahov, Sahib Ələsgərov, Adil Həsənov Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Çingiz Qəribli, Ramiz Çıraqlı, Eldar Cəfərov Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Azər Zeynalov və Tovuz Su Kanal İdarəsinin kollektivi iş yoldaşları Nəbi Ələkbərova, atası
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

İlham Dəmirov, Bənövşə Babayeva, Vidadi Əkbərov Tofiq Zeynalova, əzizi
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Çingiz Qəribli Ənvər və Nəbi Ələkbərov qardaşlarına, ataları
**Allahverdi Məhəmməd oğlu Ələkbərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

“Tovuz” qəzetinin kollektivi qələm yoldaşları Sərhəd Məmmədova, qardaşı
**Fərhad Hüseyn oğlunun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

## Hörmətli oxucular!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı olan

**“Tovuz”**

qəzetinə 2017-cı ilin birinci yarısı üçün abunə yazılışına başlanıb. Qəzetin yarım illik abunə qiyməti 20 manatdır. Qəzetə “Kapitalbank”ın Tovuz filialında abunə yazılmaq olar.

BAŞ REDAKTOR
Çingiz Qəribli

Ünvanımız:
*Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,*
*Telefon: 315-35-23*
*tovuz.1929@mail.ru*

*Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və “Mətbuat firması” mətbəəsində çap olunmuşdur.*
*Sifariş 950. Tiraj: 1500.*